*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 168-175* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.168*

# XIX əsrin sonu – XX əsrin əvvəli dövri mətbuatımıza bir nəzər

**Səbinə Əhmədova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: ehmedova3@mail.ru

**Annotasiya.** Məqalədə XIX əsrin ikinci yarısı, XX əsrin əvvəlləri Azərbaycan ictimai-siyasi, elmi-ədəbi-mədəni həyatında baş verən hadisələr fonunda Azərbaycan milli mətbuatının təşəkkülü və ilkin inkişaf prosesi tədqiq edilir. Mövzunun müasir dövr üçün aktuallığı nəzərə alınaraq, çar Rusiyası məmurları tərəfindən Qafqazda yaşayan müsəlman-türklərinin mətbu hüquqlarının məhdudlaşdırılması, 1905-ci il Rus İnqilabından sonra isə bolşeviklərin rusdilli qəzetlərdə Azərbaycan xalqının əleyhinə riyakarcasına təbliğat aparması, o cümlədən ermənilərin fitvası ilə guya Azərbaycan torpağının ermənilərə məxsus olması barədə fikirlər yayması və s. kimi antimilli təbliğat cəhdlərinin mahiyyətinə aydınlıq gətirilir.
Məqalədə eyni zamanda, Azərbaycan xalqının maariflənməsi və rifah halının yaxşılaşdırılması naminə var-dövlətini əsirgəməyən neft milyonçularının mətbu işinin inkişafı üçün verdiyi töhfələrdən söz açılır. Onların milli demokratik ruhlu ictimai-siyasi təşkilatların (“Difai”, “Müsavat”, “Nicat”, “Müsəlman xeyriyyə”, “Nəşri-maarif” və s.), milli şüurun inkişafında əhəmiyyətli dərəcədə rol oynayan qəzet və jurnalların (“Həyat”, “İrşad”, “Füyuzat”, “Yeni İrşad”, “Açıq söz” və s.) yaradılması və fəaliyyətində müstəsna rol oynamaları konkret faktlarla göstərilir.
Məqalə əhatə etdiyi dövrü mürəkkəb mübarizələr dövrü, həmin dövrün milli ruhlu mətbuatını isə qabaqcıl ziyalıların fikir, düşüncə tribunası kimi xarakterizə edir.
**Açar sözlər:** Azərbaycan, mətbuat, jurnal, qəzet, ədəbi, publisistik

**Məqalə tarixçəsi:** göndərilib – 02.02.2023; qəbul edilib – 24.02.2023

# A glance at our periodical press in the late 19th and early 20th centuries

**Sabina Ahmadova**
Doctor of Philosophy in Philology
Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: ehmedova3@mail.ru

**Abstract.** In the article is studied the organization and initial development process of the Azerbaijani national press in the background of the events happened in socio-political and literary-cultural life of Azerbaijan in the second half of the 19th century and the beginning of the 20th century. The relevance of the topic for modern times is considered and the restriction of the press rights of Muslim Turks living in the Caucasus by the officials of Tsarist Russia, hypocritical propaganda of Bolsheviks against the Azerbaijani people in Russian-language newspapers after Russian revolution in 1905, including spreading ideas that the land of Azerbaijan allegedly belongs to Armenians by the fatwa of the Armenians and other anti-national propaganda initiatives is clarified.

In the article the contribution of oil millionaires who spent their property to increase the education and welfare of the Azerbaijani people, for the development of the press was mentioned. Their exceptional role in the creation and activities of national-democratic socio-political organizations ("Difai", "Musavat", "Nijat", "Muselman Kheyriyye", "Neshri-maarif" and others), newspapers and magazines ("Hayat", "Irshad", "Fuyuzat", "Yeni Irshad", "Achig Soz" and others) that played an important role in the development of national consciousness is indicated by concrete facts.
The article is characterized the period covered as a period of complex struggles, and the national press of that period as the tribune of ideas and thoughts of advanced intellectuals.
**Keywords:** Azerbaijan, press, magazine, newspaper, literary, publicistic

**Article history:** received − 02.02.2023; accepted − 24.02.2023

## Giriş / *Introduction*

XIX əsrin ikinci yarısında Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında bir sıra əlamətdar hadisələr baş verdi. Bu sırada 1874-cü ildə Səid və Cəlal Ünsizadə qardaşlarının Seyid Əzim Şirvaninin yaxından iştirakı ilə Şamaxı şəhərində "Üsuli-cədid" məktəbini açması, 1879-cu ildə Bakı milyonçusu Seyid Mirbabayevin vəsaiti ilə Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində Azərbaycan şöbəsinin yaradılması, bu şöbənin 1881-1917-ci illər ərzində 250 azərbaycanlı müəllim hazırlaması, 1887-ci ildə H.Mahmudbəyov və S.M.Qənizadə tərəfindən ilk dəfə olaraq Bakı şəhərində doğma ana dilində "rus-müsəlman" məktəbinin fəaliyyətə başlaması, 1892-ci ildə M.T.Sidqi tərəfindən Ordubad şəhərində "Əxtər", 1894-cü ildə isə Naxçıvan şəhərində "Tərbiyə" məktəblərinin yaradılması, 1883-cü ildə məşhur neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçiliyi ilə Bakıda teatr binasının inşa edilməsi və s. kimi yeniliklər xüsusilə əhəmiyyətli idi. Bu inkişaf prosesində Azərbaycan xalqının tərəqqisini qətiyyən istəməyən çar Rusiyası məmurlarından fərqli olaraq, neftli torpaqlarla zəngin Bakı şəhərinin yetirdiyi, xalqını, vətənini ürəkdən sevən azərbaycanlı xeyriyyəçilərin əvəzsiz xidmətləri vardı. Onlar (Hacı Şıxəli, Hacı Əliabbas, Hacı Zeynalabdin Tağıyev, Ağamusa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, İsabəy Hacınski, İsabəy Aşurbəyli, Əjdər Aşurbəyli, Teymur Aşurbəyli, Nabat xanım Aşurbəyli, Kərbəlayi İsrafil, Sona xanım Hacıyeva və b.) qazandıqları pulları dəbdəbəli həyat sürməyə deyil, xalqın maariflənməsi və rifah halının yaxşılaşması üçün sərf edirdilər. Bakı milyonçularının bu nəcib fəaliyyətinə düzgün istiqamət verən, xalqın tərəqqisi və istiqbalı uğrunda mübarizəyə səsləyən əsas qüvvə isə dövrün aydınları, xüsusən də öndə gedən Həsən bəy Zərdabi idi.

## Əsas hissə / *Main Part*

Həsən bəy Zərdabi (Məlikov) 1837-ci ildə o vaxtkı Göyçay qəzasının Zərdab kəndində anadan olmuş, ilk təhsilini mədrəsədə almış, bir sıra ilahiyyat elmlərinə yiyələnmiş, sonra Şamaxıda rusdilli qəza məktəbində oxumuş və həmin məktəbin milliyyətcə rus müdirinin köməyilə təhsilini Tiflis qəza məktəbində davam etdirmişdir. Həm Şamaxıda, həm də Tiflisdəki qəza məktəblərində rus dilində təhsil aldığından bu dili mükəmməl bilən Həsən bəy təhsilini Moskva Universitetində davam etdirmiş və doğma vətənə qayıdaraq müəllimlik fəaliyyətinə başlamışdı. Gimnaziyada təbiət fənnini tədris edən Həsən bəy burada da çar istibdadına qarşı çıxdığına görə, təzyiqlərə məruz qalmış və işdən çıxmalı olmuşdur.

Heyrətamiz dərəcədə vətənpərvər bir insan olan Həsən bəyi narahat edən əsas məsələlərdən biri Azərbaycan kəndlisinin əmək şəraitini yaxşılaşdırmaq yolu ilə kənd təsərrüfatının, xüsusilə əkinçilik və heyvandarlığın inkişaf etdirilməsinə nail olmaq idi. XIX əsrin 70-ci illərində çar

II Aleksandrın fərmanı ilə imperiya ərazisində köləliyin ləğv edilməsindən sonra bazar iqtisadiyyatının sürətli inkişafına rəğmən, elmi-texniki nailiyyətlər də inkişaf etməkdə idi. Həsən bəy bütün bunları xalqının nəzərinə çatdırmaq, onlara torpaqdan daha düzgün istifadə etmək yollarını başa salmaq istəyirdi. Təbii ki, televiziyanın, radionun, internetin olmadığı həmin dövrdə bunu yalnız və yalnız mətbuatla əldə etmək olardı. Həsən bəyin narahatlığının ikinci əsas səbəbi bununla bağlı idi. Çünki gürcülər və ermənilər də onun xalqı kimi çar Rusiyasının təbəələri olsalar da, öz dillərində qəzetlər, jurnallar buraxırdılar və təbii ki, bu da onları maarifləndirir, çox mətləblərdən agah edirdi. Azərbaycanda isə tək-tük qəzet və jurnal rus dilində buraxılırdı. O zaman Qafqazın mərkəzi Tiflis şəhəri sayıldığından və bütün region buradan idarə olunduğundan, Həsən bəy öz məqsədinə nail olmaq üçün düz bir il altı ay (1873-cü ilin aprelindən 1874-cü ilin oktyabrına qədər) Tiflis və Bakı dəftərxanaları arasında ayaq döydü. Onun əzmkarlığı, qətiyyəti sayəsində nəhayət ki, Azərbaycan xalqının ən əlamətdar günlərindən biri gəlib çatdı – 1975-ci il iyulun 22-də Bakı şəhərində doğma ana dilində qəzetin birinci sayı nəşr olundu. Bununla da, Azərbaycan milli mətbuatının əsası qoyuldu.

"Əkinçi" qəzeti nəinki xalqın milli məfkurəsinin formalaşmasında öz müsbət təsirini göstərdi, eyni zamanda bir sıra sənətkarları ətrafına toplamaqla, onların ədəbi fəaliyyətini qəzetin ideya istiqamətinə uyğunlaşdırdı. "Əkinçi"nin ideya-məzmun mündəricəsində isə ruznamə-daxiliyyə, əkin və ziraət xəbərləri, mətbuatın yazdıqları, elmi xəbərlər və s. əsas yer tuturdu. Elm və ziraət xəbərləri qəzetin mühüm hissəsi idi və burada kənd təsərrüfatı işlərini yeni üsulda qurmaq üçün elmi məqalələr yazılır, məsləhətlər verilirdi. Bu məqalələrin çoxu Zərdabi tərəfindən yazılırdı. "Əkinçi", həmçinin şəhərin kustar sənayesini tənqid edir və Azərbaycan şəhərlərində karxanalar qurulmasına çalışırdı" [2, s.166-167].

1877-ci ildə ermənilərin fitvası ilə çar məmurları tərəfindən "Əkinçi" bağlanandan iki il sonra, yəni 1879-cu il dekabr ayının 6-da "Ziya" ("Ziyayi-Qafqaziyyə") qəzeti Tiflis şəhərində Hacı Əfəndi Səid Ünsizadə və Cəlal Əfəndi Ünsizadə qardaşları tərəfindən nəşrə başladı. 1884-cü il iyun ayının 26-da nəşri dayandırılan bu qəzet "Əkinçi"dən sonra maarifçilik məqsədi daşıyır, aktual problemləri diqqətə çəkir, dini və dünyəvi elmlərə dair yazılarla çıxış edir, məmləkət hadisələri barədə sadə, azyaşlı uşağın belə başa düşəcəyi şəkildə məlumatlar verirdi. "Azərbaycan mətbuatının tarixində ilk və əsaslı təcrübə məktəbi yaradan və ölkəmizdə jurnalistikanın ictimai fikir institutu kimi tanıdılmasında müstəsna xidmətlər göstərən "Əkinçi"dən (1875-1877) sonra xalqımızın sosial-mədəni həyatında dövrün informasiya ehtiyaclarını ödəməyə çalışan "Ziya" ("Ziyayi-Qafqaziyyə") qəzeti oldu. Bu ikili adla nəşr olunan qəzet XIX əsrin ikinci yarısında Azərbaycan xalqının ictimai yaşam tərzini, onun dünyaya baxışını, milli fikir və arzularını əks etdirməyə çalışır, "öz dövrünün ayinəsi" kimi mövcud gerçəklərin əks etdirilməsini məqsəd bilirdi" [1, s.6].

"Ziya"nın səhifələrində S.Ə.Şirvani, H.Zərdabi, İ.Nazir, M.R.Danış, İ.Nakam, S.Vəlibəyov kimi qabaqcıl ziyalılar iştirak edirdilər, lakin əfsuslar olsun ki, 1884-cü ildə bu qəzet də öz fəaliyyətini dayandırmağa məcbur oldu.

XIX əsrin axırlarında maarifpərvər insanlarımız, əvvəlcə rus dilində, 1906-cı ildən etibarən isə Azərbaycan dilində, bir-birilə yarışa girirmiş kimi, heyrətamiz bir sıçrayışla "İttifaq", "Tərəqqi", "Səda", "Sədayi-haqq", "Təzə həyat", "Hümmət", "Kaspi", "Füyuzat", "Yeni Füyuzat", "Arı", "Babayi-Əmir", "Tuti", "Məzəli", "Kəlniyyət", "Şəlalə", "İrşad", "İttifaq", "Zənbur", "İqbal", "Həyat", "Təkamül" və s. qəzet və jurnallar yaratdılar. Bu nəşrlər də Hacı Zeynalabdin Tağıyevin maliyyə vəsaiti ilə çap olunurdu. "Hacı Zeynalabdin Tağıyevin maddi yardımı, Əli bəy Hüseynzadənin redaktorluğu ilə Bakıda "Kaspi" mətbəəsində çap olunan "Füyuzat" jurnalı XX yüzilin əvvəllərində mətbuat meydanında yeni səs və nəfəslə, milli oyanış, özünüdərk ideyalarının daşıyıcısı olan bir tarixi-ədəbi hadisə kimi daxil olmuşdur. Tam bir il müddətində – 1906-cı il noyabr ayının 1-dən 1907-ci il noyabr ayının 1-nə kimi – cəmi 32 nömrəsi çap edilən bu dərgi fəaliyyət göstərdiyi qısa müddət ərzində Azərbycanda milli dü-

şüncənin, türkçülük ideyalarının dirçəliş və təkamülünə rəvac vermişdir” [8, s.424].

“XX əsrin başlanğıcında Rusiyada baş verən burjua-demokratik inqilabı (1905-1906) və İranda vüsət tapan Məşrutə hərəkatı (1906-1911) cəmiyyət həyatının bütün sahələrində böyük dəyişikliklərin baş verməsinə səbəb oldu. Məhz bu dövrdə ilk dəfə olaraq Rusiyada və İranda monarxiya rejiminin tilsimi sınmış, regionda çoxpartiyalı və seçkili sistemə əsaslanan demokratik cəmiyyətə doğru mühüm addımlar atılmış, bu dövrün mühüm hadisəsi kimi meydana çıxmış söz və mətbuat azadlığı öz növbəsində milli-demokratik ədəbiyyatın və mətbuatın yaranması və inkişaf etdirilməsinə ciddi təkan vermişdir.

“İrşad” (1906-1909), “Yeni irşad” (1909) qəzetlərini nəşr edən Əhməd bəy Ağayev də həmməsləki Əli bəy Hüseynzadə kimi, İslamçılığı və türkçülüyü təbliğ edirdi. Vaxtilə “Şərqi-Rus” qəzetinin dil sadəliyi, imla və əlifba islahatına qarşı çıxan Əhməd bəy Ağayev burada öz fikirlərini geniş yayırdı. Bu mətbuatın davamı və məntiqi nəticəsi sonralar əksinqilabçı Müsavat hökümətinin nəşr etdirdiyi rəsmi qəzetlər idi (“Açıq söz”, “Azərbaycan”, “İstiqlal” və s). “İşıq” isə (1911-1912) bizdə ilk qadın məcmuəsi idi” [10, s.427]. Mircəlal Paşayevin və Firidun Hüseynovun qeyd etdikləri kimi, jurnalın məramı qadınlar arasında maarifçiliyi yaymaq, müsəlman qızların təhsil almasına şərait yaratmaq, savadsızlığı aradan qaldırmaq idi. Yurnal 1911-ci il yanvarın 11-dən 1912-ci ilin sonuna kimi nəşr olundu, 68 sayı işıq üzü gördü və cəmiyyətdə ziyalı qadınların rolunun artmasına çağıran və qadın hüquqlarını təbliğ edən maarifçi yazıları ilə mətbuat tariximizdə dərin iz buraxdı.

“İşıq” həftədə bir dəfə, şənbə günü nəşr olunan elmi-pedaqoji, ədəbi, uşaq tərbiyəsi, ədəbiyyat, təbabət və evdarlığa dair qadın məcmuəsi idi. Burada hüquqa, mədəniyyətə, şəriət qaydalarına, dünya xəbərlərinə aid müxtəlif guşələr də olub. Qadınlar üçün olan bu ilk jurnalın nəşrinin maddi dəstəkçisi Hacı Zeynalabdin Tağıyev, məsul katibi Sona xanım Hacıyeva [10, s.282-283], redaktoru isə maarifpərvər, publisist Xədicə xanım Əlibəyova (1884-1961) olmuşdur.

Bakıda 1870-ci ildən etibarən “Məcməüş-şüəra” (“Şairlər məclisi”) fəaliyyət göstərirdi. Lakin bu məclisi təmsil edən şairlər mətbuatda çıxışlar edə bilmirdilər. Çünki bütün mətbu orqanları rus dilində idi. 1906-cı ildən etibarən isə Azərbaycan dilində qəzet və jurnalların yaranması ilə belə bir imkan əldə etməyə başladılar. Onlar məslək, əqidəcə xalqı rus istilasından, erməni zəhərindən xilas edib İslam-türk bayrağı altında birləşdirmək istəyən böyük mütəfəkkir, tənqidçi, yazıçı, publisist, şair, rəssam, ictimai və siyasi xadim Əli bəy Hüseynzadə ilə bir idilər.

1905-ci ildə Rusiyanın işğalı altında olan bütün bölgələrdə olduğu kimi, Azərbaycanda, əsasən də Bakıda inqilabi hərəkat gücləndi və gənc M.Ə.Rəsulzadə, o cümlədən Ə.Müznib də bu hərəkata qoşuldular. Onlar azadlıq uğrunda mübarizəyə qoşulmuş digər azərbaycanlı fəallarla birlikdə yığıncaqlar keçirir, Azərbaycanı müstəmləkəçilikdən qurtarmağın yollarını arayırdılar. Onların arasında bolşevik ruhlu, bolşevik əqidəli insanlar da var idi ki, lakin onlar xalqın qurtuluş yolunu “böyük rus xalqı”nın ətəyindən yapışmaqda görürdülər.

1905-ci ildə Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə Azərbaycan türkcəsində “Həyat” qəzeti fəaliyyətə başladı. Qəzetin naşirləri Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayev idi. “Əkinçi”dən sonra bu qəzet doğma dilimizdə buraxıldığı üçün onu oxuyub-yazmağı bacaran hər kəs oxuyur və xalqın qurtuluş yolunun “Türkləşmək, İslamlaşmaq və Müasirləşmək”də olduğunu başa düşürdü.

İdeya silahdaşları arasında ən çox fərqlənənlərdən biri Əliabbas Müznib idi. Bu maarifçi-publisist türkçülük, islamçılıq ideyaları ilə xalqı maarifləndirmək məqsədilə mətbuatda (“Molla Nəsrəddin”, “Zənbur”, “Tazə həyat”, “İttifaq”, “İqbal” “Dirilik”, “Babayi-əmir”, “Ovqati-nəfisə”, “Şihabi-saqib” və s. kimi qəzet və jurnallarda) aramsız olaraq çıxışlar edir, milli problemləri göstərir, xalqı birliyə, həmrəyliyə, zülmə, zorakılığa qarşı mübarizəyə qoşulmağa səsləyirdi. Ədib çox gözəl anlayırdı ki, xalq öz milli kimliyini – soyunu-kökünü, tarixini bilməsə, hər yetən onu aldadacaq, hər kəs bir damğa yapışdıracaq, tarixi təhrif olunacaq, hüququ tapdalanacaq, milli mənliyi ayaqlar altına

atılacaqdır. Odur ki, publisistik fəaliyyətində, əsasən, milli-mənəvi kimlik, türkçülük və islamçılıq ideyalarını təbliğ edirdi.

Ə.B.Hüseynzadənin və Ə.B.Ağaoğlunun xalqın azadlığı uğrunda bir məşəl kimi yandıqlarını görən Müznib yazırdı ki, 1900-1910-cu illərdə Azərbaycan türk mütəfəkkirlərindən Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və başqaları Qafqazdakı türk və islam balalarına türklüyünü, islamlığını bildirmiş, "Həbsi-nəsəbi"ni öyrətmiş, "abavü-əcdadını" tanıtmışdı [3]. Lakin onların getməsi Qafqaz əhalisini (Müsəlman əhali nəzərdə tutulur – S.Ə.) başsız, böyüksüz buraxmışdı. Çünki o cənablar dinsizlərin dini, karların qulağı, korların gözü idilər. Müxtəsər, bu böyük maarifçilər yetim qalan Qafqaz müsəlmanlarının ata-babaları idilər.

Əli bəy Hüseynzadənin (yenə də Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə) 1906-ci ildə nəşr olunan "Füyuzat" jurnalı azadlıq arzularını daha da çiçəkləndirdi və Ə.Müznib çox böyük həvəslə bu jurnalda çalışmağa başladı. Lakin bir ildən sonra bu jurnal qapandı, buna görə də Müznib Azərbaycanda milli-azadlıq ideyalarının carçılarından biri, məşhur publisist Haşım bəy Vəzirovun "Tazə həyat" (1907-1908) və "İttifaq" (1908-1909) qəzetlərində çıxışlar etməyə başladı.

Azərbaycan mətbuatı tarixində ilk satirik məcmuə olan "Molla Nəsrəddin" 1906-cı ildə Tiflisdə "Qeyrət" mətbəəsində nəşrə başlamışdı. Jurnalın rəhbəri sonralar Azərbaycan ədəbiyyatında və jurnalistikasında böyük iz buraxmış Cəlil Məmmədquluzadə idi. Sonralar Bakıda və Təbrizdə fəaliyyətini davam etdirən jurnalın 25 il müddətində 741 nömrəsi çapdan çıxmışdır.

Xalq tərəfindən böyük maraqla oxunan "Molla Nəsrəddin" jurnalı təkcə mənsub olduğu xalqın deyil, həm də dünya xalqlarının ədəbiyyatı və mədəniyyəti ilə sıx bağlı idi. Jurnal dərc etdiyi felyetonlar, inqilabi ruhlu şeirlər və s. yazılar vasitəsilə inhisarçı çar hökumətini, din pərdəsi arxasında avam xalqı aldadan, malını-mülkünü talayan din xadimlərini tənqid atəşinə tutur, xalqı maarifləndirməyə çalışırdı.

Dövr bir-birinə zidd qüvvələrin mübarizəsi dövrü idi. XX əsrin əvvəllərində milli mətbuatın yaranması ilə bərabər, bolşevik mətbuatı da meydana gəlir, mövqeyini möhkəmləndirməyə çalışırdı. Belə ki, 1906-cı ilin aprelində Bakıda "Bakınski raboçi" qəzeti çıxmağa başladı. Qəzetin ilk redaktorları A.Caparidze, V.Niokin və Radus Zenkoviç idi. Elə həmin günlərdə erməni bolşeviki L.Kununyantsın rəhbərliyi ilə "Banvori dzayn" ("Fəhlə səsi") qəzeti fəaliyyətə başladı. 1906-cı il mayın 26-dan etibarən isə Azərbaycan və erməni dillərində "Dəvət-qoç" qəzeti çıxmağa başladı. Bu qəzetdə M.Əzizbəyov, A.Caparidze, S.Əfəndiyev və M.Melikyan fəaliyyət göstərirdilər.

Bolşeviklər, həmçinin «Искра», «Голос рабочего», «Рядавой», «Гудок», «Призыв» adlı qəzetlər dərc edirdilər. Bu qəzetlər guya fəhlələr arasında beynəlmiləl tərbiyə işində kütlələri çarizmə və yerli burjuaziyaya qarşı səfərbər edirdilər, əslində isə onların, xüsusilə də Kununyantsın məqsədi tamam başqa idi – Bakını və bütün Azərbaycanı müsəlman-türk əhalidən təmizləmək istəyirdilər. Bolşevik mətbuatı durmadan İslam dininə, türkçülüyə, milli dəyərlərə nifrət ifadə edən yazılarla çıxış edir, müsəlman xeyriyyəçiləri, maarifçiləri, o cümlədən Hacı Zeynalabdin Tağıyevi təhqir edir, böhtanlar atırdılar. Təsadüfi deyildir ki, öz xalqını, Azərbaycan torpağını sevən, milli və dini dəyərlərə, adət-ənənələrə böyük sevgi ilə yanaşan Nəriman Nərimanov İslam dinini təhqir edənlərə kəskin cavablar verir, din pərdəsi altında gizlənmiş fırıldaqçı ruhaniləri tənqid atəşinə tuturdu. O, 1909-1911-ci illərdə qələmə aldığı "Tibb və islam" adlı əsərində İslam dininin cəmiyyət üçün nə qədər faydalı olduğunu göstərir, müqəddəs Qurani-Kərimin bir sıra mübarək ayələrinin tibb elminin inkişafı, insan orqanizminin sağlamlığı üçün əhəmiyyətli olduğunu vurğulayır, xalqın taleyinə biganə olan, xürafata sürükləyən mollaları qınayır, onları biganəliklərinə görə məzəmmət edir, "əcəba, görəsən Quranın mənasını ruhanilərimiz nə üçün gizləyirlər" [6, s.175], – deyə ittiham edirdi.

Sinfi mübarizə adı altında birləşən bolşeviklər (bu sırada Məşədi Əzizbəyov, Sultan Məcid Əfəndiyev, Qəzənfər Musabəyov, Həmid Sultanov, Çingiz İldırım, Əliheydər Qarayev, Ruhulla Axundov və b. da var idi) 1918-ci il mart qırğını zamanı daşnak-bolşevik hərbi birləşmələri-

nə qoşularaq, Bakı şəhərində çox sayda azərbaycanlıların ölümünə fitva verdilər.

Dövri mətbuat öndərlərindən biri də Məhəmməd Ağa Şahtaxtlı (1846-1931) idi. O, Azərbaycan mətbuatının inkişafında xüsusi xidmətlər göstərmişdir. Almaniyadakı Leypsiq Universitetinin Tarix, fəlsəfə və hüquq fakültəsində təhsil almış, ərəb, rus, alman, fransız dillərini mükəmməl mənimsəmiş Şahtaxtlı müqəddəs Qurani-Kərimin ərəb dilindən alman dilinə tərcüməsindən mülahizələr söyləmiş, Osmanlı ədiblərindən Şakir paşanın "Müsəlman dünyasında Günəş təqvimi", Əhməd Cövdət paşanın "Peyğəmbərlər və xəlifələr tarixi" əsərlərini rus dilinə tərcümə etmişdir. 1903-cü ildə Tiflisdə "Şərqi-Rus" qəzetinin nəşrinə başlamış, 1905-ci ilə kimi fəaliyyət göstərən bu qəzetdə ictimai-siyasi, elmi, ədəbi-mədəni və s. mövzularda məqalələr dərc etmişdir. "Şərqi-Rus" qəzetinin ətrafında C.Məmmədquluzadə, M.Ə.Sabir, M.S.Ordubadi, Ö.F.Nemanzadə, Ə.Qəmküsar, Ə.Nəzmi və s. kimi qabaqcıl ziyalılar toplaşmışdı.

M.Şahtaxtlının ədəbi irsini əhatə edən "Seçilmiş əsərləri" (tərtib edəni və ön sözün müəllifi İsa Həbibbəyli, Bakı, "Çaşıoğlu", 2006) onun ilk kitabıdır. Ədibin "Kafkaz", "Novoe vremya", "Kaspi", "Baku", "Şərqi-Rus" qəzetlərində dərc olunmuş məqalələri, "Türkiyəni necə xilas etməli" əsəri, əlifba layihəsi və bir neçə məktubu "Seçilmiş əsərləri"nə daxil edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qurulandan sonra isə F.B.Köçərli, H.Cavid, C.Cabbarlı, Ə.Cavad, Ü.Hacıbəyli, S.Hüseyn, Y.V.Çəmənzəminli, Ə.Müznib, Əmin Abid, Məşədi Azər, Haşım bəy Saqib, Səməd Mənsur, M.Ə.Rəsulzadə, Mirzə Əbdülxalıq Cənnəti, Seyid Zərgər, Ağadadaş Münitri kimi mütəfəkkirlər Azərbaycanın tərəqqisi uğrunda mübarizəni təşkilatlandırmaq ideyasını ön plana çəkdilər. Bu məqsədlə "Yaşıl qələm", "Qırmızı qələmlər" adlı yaradıcılıq cəmiyyətləri yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ətrafına Azərbaycanın ən mütərəqqi insanlarını, qabaqcıl ziyalılarını toplayan "Yaşıl qələm" Cəmiyyətinin "yaşıl" adı ilə bağlılığı, ilk növbədə, İslam bayrağının yaşıl rəngdə olması, eyni zamanda yaşıl rəngin bir bahar ruhunda torpağın oyanaraq hər tərəfin yaşıl libasa bürünməsi, hər tərəfə yeni bir həyat, yeni bir abi-həyat gəlməsi ilə bağlı idi. Cəmiyyətin bütün üzvləri Azərbaycan xalqının düşmənlərinə, erməni daşnaklara, Leninin köləsinə çevrilən bolşeviklərə və başqa düşmənlərə qarşı mübarizə aparır, xalqın başının üstündə maarif məşəlləri yandırırdı. O ərəfədə Azərbaycanın ən tanınmış, ən məşhur mühərrirləri Əli bəy Hüseynzadə, Qara bəy Qarabəyov, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə və digər qabaqcıl ziyalılar Azərbaycan xalqının milli-mənəvi intibahının yüksəlişi üçün əllərindən gələni edirdilər. "Yaşıl qələm" cəmiyyətinin üzvləri xalqın bütün problemlərini bir-birinə xəbər vermək və imkan daxilində həll etmək məqsədilə 1920-ci ilin martında bazar ertəsi səhər saat yeddidə "Türk ocağı"nda (Haşımovun mülkündə) möhtəşəm bir iclas təşkil eləmişdilər. İclasa bu mühərrirlər və ədiblər dəvət olunmuşdu: 1. Məhəmməd Əmin Rəsulzadə. 2. Maarif naziri Həmid bəy Şaxtaxtlı. 3. Nurməhəmməd Şahsuvarov. 4. Doktor Həsən bəy Ağayev. 5. Şəfi bəy Rüstəmbəyov. 6. Əhməd Cövdət Pepinov. 7. Ömər Faiq Nemənzadə. 8. Hadi Atlasi. 9. Hüseyn Sadiq. 10. Əhməd Həmdi. 11. Üzeyir bəy Hacıbəyov. 12. Şəfiqə xanım Əfəndizadə. 13. Şəfiqə xanım Qasprinskaya. 14. Səlimə xanım Yaqubova. 15. Xəlil İbrahim. 16. Qədir Heydərov. 17. Məhəmmədbəyli Hüseyn Rza. 18. Mirzə Sadıq Axundzadə. 19. Əbdülvahab Məhəmmədzadə. 20. Fərhad Ağayev. 21. Bəhri Mürsəlzadə. 22. Xudadat bəy Əzizbəyli. 23. Hacı İbrahim Qasımov. 24. Mirzə Məhəmməd Axundzadə. 25. Əli Əjdər. 26. Osman Qantəmir. 27. Rəhim Vəkilov. 28. Məhəmməd ağa Şaxtaxtlı. 29. Məhəmmədəli Rəsulzadə. 30. Mustafa bəy Əlibəyov. 31. Mirabbas Mirbağırzadə. 32. Hüseyn Mirzə Camalov. 33. Məhəmməd Ağaoğlu. 34. Əbdürrəhim bəy Haqverdiyev. 35. Nəcəf bəy Vəzirov. 36. Həbib Babazadə. 37. Hacıağa Nuruzadə. 38. Qafur Rəşad. 39. Ağa Əli Qasımov. 40. Mahmudbəy Mahmudbəyov. 41. Əhməd Bədii. 42. Əli Rza. 43. Rza Zaki. 44. Rza Təhmasib. 45. Mircəfər Mircavadov.

Şairlər: 1. Salman Mümtaz. 2. Hüseyn Cavid. 3. Abdulla Şaiq. 4. Mirzə Əbdülxalıq Yusif. 5. Mirzə Əbdülxalıq Cənnəti. 6. Cavad Axundzadə (Əhməd Cavad) 7. Əli Abbas Müz-

nib. 8. Feyzulla Sacid. 9. Doktor Pəşid Sərpa. 10. İsabəy Aşurbəyli Həqqi. 11. Seyid Zərgər. 12. Cəfər Cabbarlı. 13. Əli Şövqi. 14. Mirhəsən Münsif. 15. Əlipaşa Hüseynzadə. 16. Ağadadaş Münirі. 17. Mirzə Əbndülxalıq Ziya. 18. Məşədi Azər. 19. Əli Məhzun. 20. Niyazi. 21. Əli Dai. 22. Ricai. 23. Mürşid. 24. Əli Razi. 25. Mehdi bəy Hüsni. 26. Səməd Mənsur. 27. Abdulla bəy Əfəndizadə Zövqi. 28. Nemət Bəsir. 29. İbrahim Tahir Musazadə. 30. Yusif Kənan. 31. Bəhram bəy Fədai. 32. Mirzə İbrahim Fəna. 33. Haşım bəy Saqib və sair" [14].

XX əsrin əvvəllərində mütərəqqi ziyalılarımız uşaqları da unutmur, A.A.Bakıxanovun, S.Ə.Şirvaninin "Uşaqlarımızı savadlandıraq" ənənəsini davam etdirərək, yeni üsullu məktəblər açır, uşaqların beynini yormayan rahat, asan qavranan dərsliklər tərtib edir, uşaq mətbuatı yaradırdılar. Qeyd edildiyi kimi, "XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və mədəni həyat canlanırdı: maarif, məktəb və mətbuat xalqın tələbatına çevrilmişdi. "Zənbur", "Kəlniyyət", Babayi-Əmir", "Tuti", "Bəhlul", "Lək-lək" kimi satirik jurnalların meydana çıxması uşaq mətbuatının yaranmasına səbəb oldu. Əsrin əvvəllərindən nəşrə başlayan "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məktəb" (1911-1920) məcmuələri uşaq mətbuatı kimi milli uşaq ədəbiyyatının inkişafına geniş yol açdı" [4, s.93].

1918-ci ildə Azərbaycan öz müstəqilliyinə qovuşandan sonra müstəqilliyi, istiqlalı, azadlığı tərənnüm edən "Bəsirət" məcmuəsi, "Azərbaycan" qəzeti, "Məktəb" məcmuəsi, "Qurtuluş" jurnalı, "İstiqlal" qəzeti, "Şeypur" satirik jurnalı kimi mətbu orqanları yarandı. Neofaşist daşnak-bolşevik siyasi-hərbi birləşmələrinin Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli qətliamla bağlı fəaliyyətini dayandırmış, rəşadətli "Qafqaz İslam Ordusu"nun və Azərbaycan igidlərinin qəhrəmanlığı sayəsində istiqlalımız tam bərpa olunandan sonra isə yenidən fəaliyyətə başlayan "Açıq söz" qəzeti, məktəbli cocuqlar üçün buraxılan "Məktəb" məcməsi və s. Azərbaycan xalqının azadlıq mübarizəsində maarifçiliyin yayılmasında mühüm rol oynadı.

1920-ci ildə 11-ci bolşevik ordusu Azərbaycanı işğal edəndən sonra, təbii ki, ədəbiyyatın, incəsənətin, publisistikanın bütün sahələrində olduğu kimi, mətbuatda da hər şey kökündən dəyişdi. Azərbaycan Demokratik Cümhuriyyətinə aid olan bütün məcmuələr, mətbuat orqanları bağlandı. Onların mühərrirləri, naşirləri həbsə alındı, bəziləri heç bir günahı olmadan güllələndi, bəziləri isə soyuq Sibirə, ən yaxşı halda, Qazaxıstana sürgün edildi. Eyni zamanda Azərbaycan Demokratik Cümhuriyyətinə, onun qurucularına böhtan atan, ləkələr yaxan bir sıra mətbu orqanları meydana gəldi ki, bu da öz növbəsində, 1937-1938-ci illərdə baş verən repressiyanın planlaşdırılmasında böyük rol oynadı.

Bundan əlavə, həmin mətbu orqanları İslam dinini gözdən salmaq üçün əllərindən gələni edirdilər. İyirminci illərdə Azərbaycan dilində ayrı-ayrı təşkilat və idarələr tərəfindən müxtəlif adlarla 15-ə yaxın qəzet və jurnal buraxılmışdı. Bu qəzet-jurnalların əsas mövzusu kommunist ideologiyasını təbliğ etmək, bütün səmavi dinlərə, o cümlədən islam dininə nifrət oyatmaq, Marksı, Lenini ilahiləşdirmək, xalqı öz milli dəyərlərindən uzaqlaşdırmaq, Sovet dövlətinin ən demokratik və qüdrətli bir dövlət olduğuna inandırmaq idi.

## Nəticə / *Conclusion*

Qeyd etmək lazımdır ki, Azərbaycan dövri mətbuat nümunələri Moskva, Peterburq, Tbilisi və Azərbaycan arxivlərində mühafizə olunsa da, bu qəzet və jurnalların əsas komplektləri AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnsitutunun fondunda mühafizə olunur. Bu əvəzsiz mənbə tədqiqatçılara elmi-ədəbi və ictimai-siyasi aspektlərdə tədqiqatlar aparmaq üçün zəngin zəmin yaradır.

**Ədəbiyyat / *References***

1. "Azərbaycan mətbuatının xronologiyası". "Ziya" Materialları transliterasiya edən və nəşrə hazırlayan Müştəba Əliyev. Məsləhətçi və redaktor Əflatun Amaşov. Ön sözün müəllifi Şamil Vəliyev. – Bakı: Qanun, 2013.
2. Doktor Cavad Heyət. Azərbaycan ədəbiyyatına bir baxış. – Bakı: Yazıçı, 1993.
3. Ədib və mühərrirlər cəmiyyətində. – "Bəsirət" qəzeti, № 157, 8 iyul 1917-ci il.
4. Əhməd, V. Azərbaycan Uşaq Ədəbiyyatı. – Bakı: Müəllim, 2006.
5. Əhməd, V., Rzayeva, D. "Arı" və "Murat" jurnalları Yeni Əlifbada. – Bakı, 2021.
6. Əhmədov, N.M. Nəriman Nərimanov (həyatı, fəaliyyəti, pedaqoji və tibbi fikirləri). – Bakı, ABU, 2004.
7. Ələkbərli, F. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi. – Bakı: Elm və təhsil, XIX-XX əsrlər, 2020 .
8. Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. – Naxçıvan: Əcəmi, 1999.
9. Həsən bəy Zərdabi. Seçilmiş məqalələri və məktubları. – Bakı, 2016.
10. Mir Cəlal, Firidun Hüseynov. XX əsr Azərbaycan Ədəbiyyatı. – Bakı: Maarif, 1982.
11. "Molla Nəsrəddin Ensiklopediyası" AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Baş redaktor İsa Həbibbəyli. Tərtib edəni və çapa hazırlayanı Vüqar Əhməd.
12. Nəbiyev, B. "Hərənin öz yolu". – Bakı: Çinar-Çap, 2008.
13. Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti. Yenidən işləyib çap edən Yadigar Türkel. – Bakı, 2015.
14. Yaşıl qələm. – "Azərbaycan" qəzeti, № 54, 15 mart 1920-ci il.

## Обзор нашей периодической печати конца XIX – начала XX века

**Сабина Ахмедова**
Доктор философии по филологии
Институт рукописей имени Мохаммеда Физули НАНА. Азербайджан.
E-mail: ehmedova3@mail.ru

**Резюме.** В статье исследуется формирование и начальный процесс развития азербайджанской национальной печати на фоне социально-политических, научных, литературных, культурных событий, происходивших в Азербайджане во второй половине XIX – начале XX века. Принимая во внимание актуальность темы для современного времени, вносится ясность в вопросе ущемления издательских прав проживающих на Кавказе турок-мусульман со стороны российских царских чиновников, а после русской революции 1905 года – большевиков, проводящих в русскоязычных газетах реакционную пропаганду против азербайджанского народа, а также распространения коварной идеи армян о принадлежности им азербайджанских земель, и сути других подобных антинациональных пропагандистских попыток. В то же время в статье говорится о вложении немалых материальных средств нефтяными магнатами для просвещения и улучшения благосостояния азербайджанского народа и для развития издательского дела. На конкретных фактах показана их неоценимая роль в создании и деятельности общественно-политических организаций демократического духа («Дифаи», «Мусават», «Ниджат», «Мусульманская благотворительность», «Просветительская пресса» и др.), газет и журналов («Хаят», «Иршад», «Фиюзат», «Йени Иршад», «Ачыг сёз» и др.) для развития национального сознания.
В статье описанный период характеризуется как время жестокой борьбы, а национальный дух прессы как мыслительная трибуна передовой интеллигенции.
**Ключевые слова:** Азербайджан, пресса, журнал, газета, литературный, публицистический